# Müdrik siyasət ölkəmizin qüdrətlənməsinə xidmət edir

***Bildiyimiz kimi, xalqımız bir neçə ay öncə Azərbaycanın müstəqilliyinin bərpasının 33 illiyini təntənə ilə qeyd etdi. Bu gün qlobal təhlükələrin mövcud olduğu bir dövrdə, dünyada getdikcə artan münaqişələrin fonunda ölkələrin və xalqların müstəqilliyinə, dövlətçiliyinə təhdidlərin artdığı bir zamanda 33 il çox az bir zamandır. 2022-ci ilin yanvar ayında Qazaxıstanda baş verən iğtişaşları yada salaq: dövlət bir balaca ehtiyatsız davransaydı, ölkədə ciddi problemlər yarana bilərdi. Eləcə də digər ölkələrdə. Bu gün Ukraynada baş verənlər də dediklərimin sübutudur. Ulu öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtmasaydı, 1993-cü ildə Azərbaycanın müstəqilliyi süquta uğrayacaqdı və ölkəmiz dünyanın siyasi xəritəsindən silinəcəkdi.***

Nəzərə alsaq ki, vaxtilə ərazilərimizin 20 faizi işğal olunmuşdu. Bir milyondan artıq qaçqın və məcburi köçkün, eləcə də tarixi Qərbi Azərbaycan torpaqlarından 300 mindən çox azərbaycanlı deportasiya və etnik təmizləməyə məruz qalmışdı. Sözsüz ki, bu, təkcə erməni vandallarının əməli deyildi, onları dəstəkləyən xarici qüvvələrin də 200-300 illik planlarının bir hissəsi idi. Yəni 1993-cü ildə ölkəmizdə Heydər Əliyev kimi müdrik şəxsiyyət, dahi Lider olmasaydı, Azərbaycanın müstəqilliyi haqqında danışmağa dəyməzdi. Müstəqil dövlətimizin qurucusu və banisi, ulu öndər Heydər Əliyevdən sonra cənab İlham Əliyev kimi böyük şəxsiyyət hakimiyyətə gəlməsəydi, nə işğalda olan torpaqlarımız azad ediləcəkdi, nə də Azərbaycan dünyaya günəş kimi parlamayacaqdı.

Xaricdən gələn əcnəbilər təəccüblənirlər ki, torpaqları 30 ilə yaxın işğal altında qalan, 32 il müstəqillik yaşı olan dövlətdə bütün regionlar, o cümlədən paytaxt Bakı da daxil olmaqla ölkəmiz belə böyük sosial-iqtisadi inkişaf yolu keçib, Azərbaycan qüdrətli dövlətə çevrilib. Həmçinin Qarabağ və Şərqi Zəngəzur işğaldan azad edilib. Bu gün həmin ərazilərimizdə meqalayihələr həyata keçirilir. Prezident İlham Əliyevin gücünü, qüdrətini, məğlubedilməzliyini, müdrikliyini beynəlxalq düşüncə mərkəzləri heyranlıqla qeyd edirlər.

Ölkə başçımız bundan sonra da hələ uzun illər Azərbaycanın inkişafına, dövlətimizin daha da qüdrətlənməsinə xidmət edəcək.

Bu gün Azərbaycanın bütün ərazilərində suverenliyini tam bərpa edib. Məlum olduğu kimi, ötən il sentyabrın 19-20 tarixlərində keçirilən antiterror tədbirləri ilə ərazilərimizdə separatizmə birdəfəlik son qoyuldu. Möhtərəm Prezidentimizin müdrikliyi, uğurlu strategiyası və ordumuzun peşəkarlığı sayəsində heç bir mülki obyektə ziyan vurmadan antiterror tədbiri bir sutkadan da az bir vaxtda yekunlaşdı. Azərbaycan dövləti dünyaya müharibənin necə aparıldığını, hərb mədəniyyətini, humanizmi göstərdi.

Dövlətimizin başçısı beynəlxalq səviyyədə böyük nüfuza malikdir. Azərbaycan dünyada etibarlı tərəfdaş kimi qəbul edilir. Həmçinin bu ilin noyabrında COP-29 ölkəmizdə yüksək səviyyədə keçirildi. 70 mindən çox qonaq, nüfuzlu beynəlxalq təşkilatların rəhbərləri, 80-dən çox hökumət və dövlət başçıları iştirak etdi. Qoşulmama Hərəkatı kimi 120 ölkənin üzv olduğu beynəlxalq təsisatda Prezident İlham Əliyev böyük uğurlara imza atdı. Dövlət başçımızın həyata keçirdiyi siyasət nəticəsində Azərbaycan beynəlxalq məkanda təşəbbüskar ölkələr cərgəsindədir.

Pandemiya dövründə Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Sədri kimi bir sıra qərar və qətnamələrlə BMT-yə müraciət olundu, qərarlar qəbul edildi. Bu gün ölkəmizin təşəbbüsləri davam edir.

Dövlət başçımız təkcə Azərbaycan üçün deyil, region və türk dünyası üçün, eyni zamanda İslam aləmi və Avropa məkanı üçün önəmli siyasi Liderdir. Belə ki, möhtərəm Prezidentimizin həyata keçirdiyi xarici siyasəti Türk və İslam dünyasına misilsiz töhfələr verib. Azərbaycan xalqı möhtərəm Prezidentimizlə fəxr edir və onun həyata keçirdiyi siyasəti yekdilliklə dəstəkləyir. Ölkəmizdə növbədənkənar prezident seçkiləri bizi istəməyən qüvvələrə bir cavab oldu. Onlar gördülər ki, Azərbaycan 1993-cü ildə təkidli tələblə ulu öndər Heydər Əliyevi hakimiyyətə dəvət etdiyi, kimi dövlət başçısı, Qalib Sərkərdə İlham Əliyevi böyük inam, etimad və sevgi ilə dəstəklədi. Cənab İlham Əliyev bu gün dünya səviyyəsində çox önəmli siyasi Liderdir.

Möhtərəm Prezidentimiz Qərbi Azərbaycan İcmasının inzibati binasının açılışında iştirak edərək öz parlaq və proqram xarakterli çıxışı ilə Qərbi azərbaycanlıların doğma yurdlarına qayıdışını xarici siyasətimizin strateji istiqamətlərindən biri kimi dünyaya bəyan etdi. Eyni zamanda bütün Azərbaycan xalqını bu milli ideologiya ətrafında həmrəyliyə çağırdı. Necə ki, ulu öndərimiz 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Gününü təsis edərək bütün azərbaycanlıları Qarabağ torpaqlarının azadlığı yolunda mübarizəyə səfərbər etdi, möhtərəm Prezidentimiz də bu bəyanatı ilə xalqımızı tarixi torpaqlarımızda itirilmiş hüquqlarımızın bərpası yolunda sona qədər mücadiləyə çağırdı.

**Məlahət İBRAHİMQIZI.**
**Qərbi Azərbaycan İcmasının Qadınlar Şurasının sədri, millət vəkili.**

Respublika .- 2024.- 24 dekabr (№ 284).- S.5.